# Azərbaycan 4-cü sənaye inqilabının çağırışlarını diqqətdə saxlayır

**Bütün dünya ötən ilin sonlarından başlayaraq, indiyədək amansız bir virusla – COVİD-19-la çarpışır. Ölkələrin iqtisadiyyatında böhran yaşanır, sosial şərait pisləşir, gerçəkləşdirilən kiçik və iri layihələrin icrası dayanır, kütləvi ölüm halları qeydə alınır. Bu baxımdan 4-cü sənaye inqilabı ilə bağlı 2020-ci ilin proqnozları da özünü doğrultmur. Məsələn, Davos Forumunun hesabatına görə, bu il ərzində dünyada biznes və maliyyə sahəsində 500 min, menecment və İT sahəsində 400 min, memarlıq və mühəndislik sahəsində 300 min, satış sahəsində isə 300 min yeni iş yerinin yaranacağı gözlənilirdi. Başqa sözlə, 4-cü sənaye inqilabının robotlaşması hesabına biznesin fərqli sektorlarında yeni imkanların yaranacağı – böyük həcmdə fəaliyyət sahələrinin açılacağı proqnozlaşdırılırdı. Lakin vurğuladığımız kimi, artıq pandemiyanın dünyada hökm sürdüyü ötən aylar ərzində ancaq mənfi göstəricilər müşahidə edilib ki, bu da əsasən virusun yaratdığı fəsadlarla bağlıdır.**

Hələ ötən ilin sonlarında Çindən sürətlə yayılan və ölümlə nəticələnən yeni virus infeksiyası pandemiyaya çevrildiyi ilk vaxtlardan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu dəhşətli bəlaya qarşı strateji xarakter daşıyan mübarizə şəraitində sosial-iqtisadi layihələrin də icrası davam etdirildi. Eyni zamanda, keçən il olduğu kimi, 2020-ci ilin ötən aylarında da 4-cü sənaye inqilabının çağırışları diqqət mərkəzində saxlanıldı.

Ümumiyyətlə, dövlətimizin başçısı tərəfindən 4-cü sənaye inqilabının meydana çıxdığı ilk vaxtlardan etibarən bu məsələ diqqətdə saxlanılıb və buna uyğun siyasət yürüdüb. Ən əsası isə respublikamızda bu sənaye inqilabının çağırışları ilə ayaqlaşa bilmək üçün inteqrativ və dayanıqlı inkişaf mühiti yaradılıb, rəqəmsal təşəbbüslər dəstəklənib.

Azərbaycan dünyada ikinci dəfə rəqəmsal ticarət qovşağını yaradan ölkədir. Respublikamızda həm dövlət, həm də özəl sektor hazırda İpək yolunun rəqəmsallaşması istiqamətində fəaliyyət göstərir. Çindən başlamış Avropaya qədər müxtəlif ölkələrdə bu istiqamətdə Azərbaycanla əməkdaşlıq davam edir. Azərbaycanda Elektron Hökumət portalı tam funksionaldır və elektron hökumət çərçivəsində elektron kənd təsərrüfatı, elektron kadastr, elektron həllər mövcuddur.

Azərbaycanın 4-cü sənaye inqilabının çağırışlarını diqqət mərkəzində saxlamasının bariz ifadəsi kimi bir məqamı qeyd etmək istərdik. Belə ki, builki Davos Forumunda Bakıda Dünya İqtisadi Forumunun regional mərkəzi yaradılması barədə Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende tərəfindən niyyət protokolu imzalanıb. Çox məhdud sayda ölkələrdə yaradılan belə mərkəzlərin əsas məqsədi də 4-cü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.



Protokolun əhəmiyyətini vurğulayan Borge Brende dövlətimizin başçısına xitabən deyib: “Biz, həmçinin bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan 4-cü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq”.

Hazırda Azərbaycanın qarşısında 4-cü sənaye inqilabı ilə bağlı bir sıra vəzifələr durur. Mütəxəssislərin fikrincə, hazırda bu gün inkişaf etmiş ölkələrin tətbiq etdiyi texnoloji inkişaf modellərinə nəzər salanda, respublikamızın yeni texnologiyalardan bəhrələnmək, innovasiyalardan yararlanmaq tempinin də gücləndirilməsinə ehtiyac duyulur. Bunun üçün təhsil modelinin modernləşməsindən tutmuş ayrı-ayrı şirkətlərdə işçi biznes proseslərinin təşkilində müvafiq biznes mədəniyyətinə keçidin aparılması, inkişafın aparıcı qüvvəsi olan telekommunikasiya sferasında yeni ekosistemin yaradılması, sabit (fixed) texnoloji bazanın qurulması və yenilənməsi vacibdir.

4-cü sənaye inqilabı şəraitində Azərbaycanda innovasiyaları tətbiq etmək imkanına sahib olan, ekosistemi dərindən bilən intellektualların yetişməsi və sayının çox olması da önəmli məsələdir. Çünki innnovasiyaları insan yaradır və ölkənin İT ekosisteminin yenilənməsi və inkişafı üçün yüksək peşəkarlığa sahib İT mütəxəssisləri lazımdır. Başlıca məqamlardan biri də onların xaricə axınının qarşısının alınmasıdır.

Bu gün Azərbaycan Prezidentinin tapşırığı əsasında hazırlanan rəqəmsal transformasiya proqramı ölkəmizin 4-cü sənaye inqilabının tələblərinə uyğun inkişafını təmin etmək məqsədi daşıyır. Cari ilin əvvəlində Davosda Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında təməli qoyulan əməkdaşlıqda da bu məsələ xüsusi yer tutur.

Yeri gəlmişkən, respublikamızda səmərəli fəaliyyəti ilə artıq diqqət çəkən Rəqəmsal Ticarət Qovşağı 4-cü Sənaye İnqilabı fonunda atılan ən mühüm addımlardan biridir. Rəqəmsal Ticarət Qovşağının rəhbəri Nicat Əsədli KİV-ə verdiyi müsahibədə Rəqəmsal Ticarət Qovşağının əhəmiyyətindən danışarkən, bildirib ki, koronavirus pandemiyasının biznesdə müəyyənləşdirdiyi yeni normaya əsasən, iş adamları biznes fəaliyyətlərində rəqəmsal transformasiyaya önəm verirlər. Onlar rəqabətqabiliyyətli biznesi onlayn təşkil edir, xidmətlərini məsafədən göstərir, əməkdaşlıqlarını isə videokonfranslar üzərindən qururlar. Pandemiyanın yaxın zamanlarda bitəcəyi gözlənilsə də, yeni normadan irəli gələn bu yeniliklər hələ uzun müddət öz qüvvəsini saxlayacaq.

Bunun səbəbi isə yeni normanın biznes üçün ənənəvi fəaliyyət formasından daha sürətli, səmərəli və əlverişli olması ilə bağlıdır. Yeri gəlmişkən, iş adamları bu qayda fonunda rəqəmsal tranformasiyanın üstünlükləri ilə hələ indi tanış olsalar da, əslində Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə yaradılan Rəqəmsal Ticarət Qovşağı yeni normanı hələ 2017-ci ildən tətbiq etməyə başlayıb.

Rəqəmsal Ticarət Qovşağı ötən müddətdə bir çox istiqamətlərdə yeni layihələr gerçəkləşdirməklə həm yerli, həm də xarici biznes nümayəndələrinə innovativ xidmətlər göstərib.

Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı Estoniyadan sonra dünyada ikinci elektron və birinci mobil rezidentlik təqdim edən platforma olub. Mobil rezidentlərin məsafədən biznesə başlaması, bank hesabı açması və dövlət xidmətlərindən yararlanması üçün inteqrasiyalar aparılıb, yeni imkanlar yaradılıb. Bu yeniliklər nəticəsində mobil rezidentlər biznesdə yeni norma ilə artıq uzun müddət öncə tanış olublar. Yeni normanın üstünlüklərini anlayan 30 ölkədən 100-dən çox əcnəbi sahibkar proqrama müraciət etməklə Azərbaycanın rəqəmsal rezidentliyini əldə edib.

Artıq respublikamızda Rəqəmsal Ticarət Qovşağının diqqətə çatdırdığı yeni norma yerli sahibkarları da əhatə edib. “www.dth.az” internet saytında Onlayn Vahid İxrac ərizəsi fərdi və hüquqi şəxslərə ixrac sənədləri üçün elektron müraicət imkanı verib. Bu resurs vasitəsilə sahibkarlar “ASAN imza”ları ilə Sərbəst Satış Sertifikatını tam onlayn almaq üçün elektron müraciət etmək imkanı qazanıb. Onlayn Vahid İxrac ərizəsinin “yalnız bir dəfə” (only-once) və intellektual məntiq prinsiplərinə əsaslanaraq yenidən təşkili başlayıb. Yaxın zamanlarda mənşə, fitosanitar, baytarlıq, qida təhlükəsizliyi sertifikatı və gömrük bəyannamələrinin də onlayn vahid pəncərədən əldə ediləcəyi nəzərdə tutulub.

*V.BÜNYATOĞLU, “Xalq qəzeti”*

